# “BİNA TİKİNTİSİ FƏALİYYƏTİ İLƏ MƏŞĞUL OLAN ŞƏXSLƏR TƏRƏFİNDƏN YAŞAYIŞ VƏ QEYRİ-YAŞAYIŞ SAHƏLƏRİNİN TƏQDİM EDİLMƏSİ İLƏ BAĞLI HƏR BİNA ÜZRƏ MƏLUMAT FORMASI”NIN VƏ FİZİKİ ŞƏXS OLAN İSTEHLAKÇILAR TƏRƏFİNDƏN AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏ BİNA TİKİNTİSİ FƏALİYYƏTİ İLƏ MƏŞĞUL OLAN ŞƏXSLƏRDƏN NAĞDSIZ QAYDADA ALINMIŞ YAŞAYIŞ VƏ QEYRİ-YAŞAYIŞ SAHƏLƏRİNƏ GÖRƏ ÖDƏNİLMİŞ ƏLAVƏ DƏYƏR VERGİSİNİN QAYTARILMASI ÜÇÜN ELEKTRON QAİMƏ-FAKTURANIN FORMASININ TƏRTİB EDİLMƏSİ VƏ GÖNDƏRİLMƏSİ QAYDASI

Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı hər bina üzrə məlumat formasının tərtib edilməsi üçün İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin İnternet Vergi İdarəsində yaradılmış **“E-portal”** sisteminə (https://new.e-taxes.gov.az/eportal) daxil olaraq açılan səhifədə Asan İmza və ya gücləndirilmiş elektron imza məlumatlarını daxil edir və qeyd olunan vasitələrdən birini seçərək **“Daxil ol”** düyməsini sıxmaqla sistemə daxil ola bilər.

> **Qeyd:** Əlavə dəyər vergisinin qaytarılması üçün elektron qaimə-fakturanı formalaşdırmaq üçün öncə **“Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı hər bina üzrə məlumat forması”**nın doldurulması və Dövlət Vergi Xidməti tərəfindən müvafiq bölmənin təsdiqlənməsi mütləqdir. Əks halda, elektron qaimə-fakturanın müvafiq xanaları (obyektin ünvanı və s.) aktiv olmayacaq, əməliyyat sistem tərəfindən məhdudlaşdırılacaq.

Giriş uğurla başa çatdıqdan sonra Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs ilk növbədə, hər bir bina üzrə məlumat formasını təqdim etmək üçün **“Ərizələr”** bölməsini seçir. Həmin bölmənin **"Yeni ərizələr"** siyahısından **"Bina üzrə məlumat formasının göndərilməsi və yenilənməsi"** ərizəsi seçilir. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs **"Bina üzrə məlumat formasının göndərilməsi və yenilənməsi"** ərizəsi ilə həm müvafiq bina üzrə məlumatları təqdim edə, həm də təqdim etdiyi təsdiqlənmiş məlumat formalarını hər rüb yeniləyə bilər.
**“Ərizə”** forması 4 altbölmədən ibarətdir: **“Ümumi müddəalar”**; **“Tikinti-quraşdırma işlərinə başlaması barədə məlumatlar”**; **“Tikinti işləri barədə ümumi məlumatlar”** və **“Tikinti obyektinin sahəsi barədə məlumatlar”.**
**“Ümumi müddəalar”** altbölməsinin “**Uçota alan vergi orqanı”**, **“Vergi ödəyicisi”**, **“Rəhbər”**, **“Sənədin göndərilmə tarixi”** və **“Rüb”** xanaları sistem tərəfindən avtomatik doldurulur.
**“Tikinti-quraşdırma işlərinə başlaması barədə məlumatlar”** altbölməsində 2 (iki) seçim imkanı var: **“2020-ci il 1 yanvar tarixdən sonra tikinti-quraşdırma işlərinə başlamış şəxslər”** və **“Sadələşdirilmiş vergi ödəyicisi olmayan, 2020-ci il 1 yanvar tarixinədək tikinti-quraşdırma işlərinə başlamış, lakin tikintisi başa çatmayan, habelə bina üzrə təqdim edilməmiş yaşayış və qeyri-yaşayış sahələri olan şəxslər”**. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs qeyd olunanlara uyğun seçim etməlidir.
Bina üzrə ilk dəfə məlumat forması təqdim olunduqda **“Sərəncamın tarixi”** xanasında həmin binanın müvafiq sərəncam tarixi daxil edilir.

**“Sərəncamın nömrəsi”** xanasında müvafiq sərəncam nömrəsi siyahıdan seçilir və ya vergi ödəyicisi tərəfindən daha öncə təqdim olunmuş birdəfəlik statik məlumatlar sistem tərəfindən avtomatik doldurulur.

**“Binanın nömrəsi”** xanasında binanın nömrəsi, **“Tikintiyə sərəncam verən orqanın adı”** xanasında tikintiyə sərəncam verən orqanın adı, **“Podratçı haqqında məlumat (VÖEN)”** xanasında podratçının VÖEN-i qeyd edilir.

**“Tikinti işləri barədə ümumi məlumatlar”** altbölməsindəki digər xanalara tələb olunan zəruri məlumatlar (ünvanlar və poçt indeksi**)** daxil edilir. Bu məlumatlar daxil edildikdən sonra **“Binanın yerləşdiyi ünvan”** xanasında binanın yerləşdiyi ünvan sistem tərəfindən avtomatik doldurulur.

**“Bina üzrə tikinti-quraşdırma işlərinin başlama və başa çatma tarixləri”** xanalarında bina üzrə tikinti-quraşdırma işlərinin başlama və başa çatma tarixləri qeyd edilir.

**“Tikintinin aparıldığı ünvanda layihə üzrə inşa edilməsi nəzərdə tutulan binaların sayı (tikinti komplekslərinə münasibətdə)”** xanasında tikintinin aparıldığı ünvanda layihə üzrə inşa edilməsi nəzərdə tutulan binaların sayı, **“Tikinti-quraşdırma işlərinə başlanılmış binaların sayı”** xanasında tikinti-quraşdırma işlərinə başlanılmış binaların sayı, **“Bina üzrə mərtəbə sayı”** xanasında isə bina üzrə ümumi mərtəbə sayı daxil edilir.

**“Tikinti-quraşdırma işlərinə başlanılmış binaların layihə-smeta dəyəri (manatla)”** xanasında tikinti-quraşdırma işlərinə başlanılmış binaların layihə-smeta dəyəri, **“Yaşayış sahələrinin 1 (bir) kvadratmetrinin satış qiyməti (manatla) (ƏDV-daxil)”** xanasında yaşayış sahələrinin hər kvadratmetrinin satış qiyməti, **“Qeyri-yaşayış sahələrinin 1 (bir) kvadratmetrinin satış qiyməti (manatla) (ƏDV-daxil)”** xanasında qeyri-yaşayış sahələrinin hər kvadratmetrinin satış qiyməti manatla qeyd edilir.

**“Tikinti obyektinin sahəsi barədə**” altbölmə **“Yaşayış sahələri”** və **“Qeyri-yaşayış sahələri”** üzrə olmaqla 2 hissədən ibarətdir.

Yaşayış şahələri barədə bu məlumatlar daxil edilməlidir: otaqların sayı, cəmi sahəsi, təqdim edilmiş və dövlətə ayrılan sahələr. Qeyri-yaşayış sahələri üzrə satışa yararlı və satışa yararsız sahələrin sayı, cəmi sahəsi, təqdim edilmiş və dövlətə ayrılan sahələr daxil edilir.

> **Qeyd**: Tikinti obyekti müvafiq yaşayış və ya qeyri-yaşayış növü olmadıqda, uyğun olaraq otaq sayı və sahəsi xanalarına sıfır (0) daxil edilməlidir. Əks halda, əməliyyat sistem tərəfindən məhdudlaşdırılacaq.

Bütün məlumatlar doldurulduqdan sonra **“Təsdiqlə və göndər”** düyməsi sıxılır. Təsdiqdən sonra ərizə **“Göndərilənlər”** qovluğunda öz əksini tapır. Sonda **“Bağla”** düyməsi sıxılır və bununla da məlumat forması tamamlanmış hesab edilir.

## ƏLAVƏ DƏYƏR VERGİSİNİN QAYTARILMASI ÜÇÜN QAİMƏ-FAKTURANIN TƏRTİB EDİLMƏSİ

Yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş əlavə dəyər vergisinin bir hissəsinin qaytarılması üçün elektron qaimə-faktura yaratmaq üçün, ilk növbədə, **“E-qaimə-fakturalar”** bölməsində yuxarıda verilmiş **“ƏDV qaytarmaq üçün qaimə”**

altbölməsi seçilir. Açılan pəncərədə **“Yeni qaimə yarat”** düyməsi sıxılır. Sonra **“Növü”** xanasından **“Cari”,** mövcud qaimədə dəqiqləşmə aparılması üçün isə **"Düzəliş"** tipi seçilir.

Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs alıcının fərdi məlumatlarını daxil etmək üçün **“Fərdi identifikasiya nömrəsi”** xanasında alıcının FİN-i, **“Pasportun nömrəsi”** xanasında isə alıcının şəxsiyyət vəsiqəsinin seriya və nömrəsini qeyd edir. Sonra **“Axtar”** düyməsi sıxılır və sistem avtomatik olaraq məlumatın doğruluğunu yoxlayır. Əgər axtarış uğurlu olarsa, ad, soyad və digər zəruri məlumatlar ekranda Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxsə təqdim olunur. **“Satıcının Bank Hesab Məlumatı”** xanasında alanın bank hesab məlumatı siyahıdan seçilir və **"Davam et"** düyməsi sıxılır.

**“Mallar”** altbölməsində **“Obyektin (binanın) ünvanı”** xanasından obyektin ünvanı, **“Binanın nömrəsi”** xanasından binanın nömrəsi, **“Giriş bloku”** xanasından giriş blokların sayı, “**Mərtəbə”** xanasından binanın mərtəbəsi siyahıdan seçilir və ya daxil edilir.

**“Satılmış malların adı (yaşayış və ya qeyri-yaşayış sahəsi)”** xanasında təqdim olunan siyahıdan otaqların sayı qeyd edilir.

**“Mənzilin nömrəsi”** xanasında mənzilin nömrəsi, **“Sahəsi (kv.m-lə)”** xanasında mənzilin sahəsi, **“1 (bir) kvadratmetrinin satış qiyməti (ƏDV-siz)”** xanasında bir kvadratmetrin ƏDV-siz qiyməti qeyd edilir.

**Qeyd:** **“Mallar”** altbölməsində daxil edilmiş siyahılar **“Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı hər bina üzrə məlumat forması**”nın göndərilməsi və yenilənməsi ərizəsinin DVX tərəfindən təsdiqlənməsi ilə formalaşır. Otaq və sahə məlumatları təqdim olunmuş məlumat formasına əsasən sistem tərəfindən yoxlanılır.

**“Obyektin tikintisinə icazə sənədinin nömrəsi və tarixi”** xanasında obyektin tikintisinə icazə sənədinin nömrəsi və tarixi sistem tərəfindən avtomatik qeyd olunur.

**“Tikinti obyektinin istismarına icazə sənədinin nömrəsi və tarixi”** xanasında tikinti obyektinin istismarına icazə sənədinin nömrəsi və tarixi daxil edilir.

**“Vergi tutulan əməliyyatlardan ödənilmiş ƏDV”** xanasında vergi tutulan əməliyyatlardan ödənilmiş ƏDV məbləği, **“Satılmış malların dəyəri (ƏDV-siz)”** xanasında satılmış malların dəyəri (ƏDV-siz) və **“Cəmi məbləğ”** xanasında cəmi məbləğ sistem tərəfindən avtomatik qeyd olunur.

Bir neçə sahə satılıbsa, eyni qaydada cədvələ əlavə edilir. Sistem avtomatik qaytarılacaq qaimə üzrə **"Yekun cəmi məbləği"**, **"Vergi tutulan əməliyyatlardan ödənilmiş ƏDV"** və **"Qaytarılacaq ƏDV məbləğini"** hesablayır.

Məlumatlar doldurulduqdan sonra **“Əlavə et”** düyməsi sıxılır və aşağıda əlavə olunan sətirdə bütün məlumatlar öz əksini tapır. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs qaiməni qaralamada saxlaya və ya imzalayıb alıcıya təsdiqə göndərə bilər. Bu halda, **“İmzala və göndər”** düyməsi sıxılır. Ekrana çıxan **“Təsdiq et”** düyməsi vasitəsilə əməliyyat təsdiqlənir.

## ƏLAVƏ DƏYƏR VERGİSİNİN QAYTARILMASI ÜÇÜN ELEKTRON QAİMƏ-FAKTURASINA DÜZƏLİŞ EDİLMƏSİ

Göndərilən elektron qaimə-fakturada hər hansı uyğunsuzluq yaranarsa və ya **"Alıcı"** dəyişərsə, Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs dəqiqləşdirilmiş elektron qaimə-faktura göndərməlidir. **"E-qaimə-fakturalar"** bölməsində yuxarıda verilmiş **"ƏDV qaytarmaq üçün qaimə"** altbölməsi seçilir. Açılan pəncərədə **"Yeni qaimə yarat"** düyməsi sıxılır, **"Növü"** xanasından **"Düzəliş"** tipi seçilir. Bu zaman alıcı məlumatları – **"Fərdi İdentifikasiya Nömrəsi (FİN)"**, **"Pasportun nömrəsi"**, **"Adı, soyadı, atasının adı"** və **"Pasportun verildiyi yer"** avtomatik sistem tərəfindən doldurulur. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs **"Satıcının bank hesab məlumatı"**nda düzəliş apara bilər. Zəruri deyilsə, **"Davam et"** düyməsini sıxır. Açılan səhifədə **"Alıcı"** məlumatları yenilənə bilər. Əgər elektron qaimə-faktura üzrə digər məlumatların dəyişməsi zəruridirsə, cədvəldən düzəliş ikonuna vurulmaqla məlumatlar gətirilir. Zəruri məlumatlara düzəliş edilir və **"Yenilə"** düyməsinə sıxılır. Bu halda, **"İmzala və göndər"** düyməsi sıxılır. Ekrana çıxan **"Təsdiq et"** düyməsi vasitəsilə əməliyyat təsdiqlənir. Bu zaman qəbul olunaraq təsdiqləndiyi barədə müvafiq təsdiq mesajı önə çıxacaq.

**Qeyd:** Alıcı elektron qaimə-faktura üzrə ƏDV-nin bir hissəsini qaytarmaq üçün ərizə ilə müraciət etmişdirsə, Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs düzəliş əməliyyatı apara bilməz.

## ƏLAVƏ DƏYƏR VERGİSİNİN QAYTARILMASI ÜÇÜN ELEKTRON QAİMƏ-FAKTURASININ LƏĞV EDİLMƏSİ

Göndərilən elektron qaimə-fakturanın ləğv edilməsinə ehtiyac yaranarsa, istifadəçi **"E-qaimə-fakturalar"** bölməsindən **"Göndərilənlər"** altbölməsində seçilmiş elektron qaimə-fakturanın sağ tərəfindəki düymədən **"Ləğvini tələb et"** əməliyyatını seçir və burada elektron qaimə-fakturanın ləğv səbəbi qeyd olunur. Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs əməliyyatdan imtina və ya əməliyyatı tamamlamaq üçün **"İmzala"** düyməsini sıxıb imzalama əməliyyatını etməlidir. Qaimə **"Alıcı"** tərəfindən təsdiqlənməyibsə, avtomatik ləğv olunur. Əks halda, alıcıya **"Ləğv tələbi"** sorğusu göndərilir və **"Alıcı"** sorğunu təsdiq etdikdən sonra elektron qaimə-faktura ləğv olunur.

**Qeyd:** Alıcı elektron qaimə-faktura üzrə **"ƏDV qaytarmaq üçün ərizə"** ilə müraciət etmişdirsə, Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs ləğv əməliyyatı apara bilməz.